# ONLAR HEÇ VAXT UNUDULMAYACAQLAR

**Xocalı soyqırımı elə bir tarixi faciədir ki, bu azərbaycanlıların qan yaddaşında əbədi yaşayacaqdır. Erməni faşizmin iç üzünü açan bu soyqırım bir daha göstərdi ki, dünyada özlərini humanist, insanpərvər xalq kimi təqdim edən ermənilər ən iyrənc sifətlərə və vəhşiliklərə əl atdılar. Onlar Xocalı kimi şəhəri bir neçə saatın içərisində 366-cı alayın köməkliyi ilə altını üstünə çevirdilər, evləri, eşikləri yandırdılar, nə qocaya, nə uşağa, nə də qadınlara heç bir aman vermədilər. Əllərinə keçənləri ya güllələdilər, ya da diri-diri yandırdılar**

Bu faciə 25 il bundan əvvəl Xocalıda baş verdi. İndi 25 ildir biz bu faciənin ağrısını, acısını yaşayırıq. Və bu yara ömrü boyu sağalan deyil. Ancaq belə faciələr bizim bir daha gözümüzü açır, dostu düşməndən ayırır. Uzun müddət çörəyimizi yeyib suyumuzu içən, torpağımızda yaşayan ermənilərin əsl sifətini biz bir daha yenidən tanıdıq. Onsuz da



biz bilirdik ki, 1905-1908-1918-ci illərdə ermənilər Azərbaycanda hansı soyqırımı həyata keçiribilər. Sadəcə olaraq biz bir qədər unutqan millətik. Ürəyimizin yumuşaqlığından və səmimiyyətimizdən düşmənləriimz həmişə bizim kürəyimizə bıçaq saplayıblar. Artıq bu millət, bu xalq dostu düşməndən ayırmağı bacarır.

Xocalı faciəsinin ildönümü ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 1-ci tağımında anım mərasimi keçirilib. Anım mərasimi 1-ci tağımın Saraydakı stasionar postunda təşkil edilmişdi. Mərasimə Xocalı faciəsinin şahidi, orda döyüşən və bir çox insanları ölümün pəncəsindən xilas edən vətənpərvər insan Nazim Hüseynov dəvət edilmişdir. Onunla yanaşı, tədbirdə DİN-in sıravi kiçik rəis heyəti hazırlayan məktəbin əməkdaşı, polis mayoru Aqşin Əlizadə, Yol Patrul Xidməti Alayının qərargah rəisinin müavini, polis kapitanı Elnur Rəhimov, Qubadlı rayon Mollu kənd tam orta məktəbinin tarix müəllimi Vahid Quliyev, eləcə də həmin rayonun Mahmudlu kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi Fəqani Məhərrəmov iştirak edirdilər.

Tədbiri 1-ci tağımın komandiri, polis mayoru Ürfət Şükürov açdı. Ürfət Şükürov da Xocalıda dünyaya göz açıb. Qardaşı Vaqif Şükürov həmin döyüşlərdə son nəfəsinədək vuruşaraq şəhid olub. Ürfət Şükürov həmin faciə ilə bağlı danışanda kədərini gizlədə bilmədi, gözləri doldu. Xocalı faciəsi elə bir qətliamdı ki, onu heç kəs yaddan çıxara bilməz. Və eyni zamanda Xocalıdan elə bir sakin yoxdur ki, bu faciənin kədərini yaşamasın. Şəhərin hər evindən, hər ocağından bir şəhid çıxıb, bir insan həlak olub. Bu fikirləri Ürfət Şükürov xüsusilə vurğuladı. O qeyd etdi ki, biz xocalılar bu gün də dərdimiz nə qədər ağır da olsa dövlətimizə və prezidentimizə güvənirik. Bilirik ki, tezliklə bu intiqamı alacaq və biz yenidən doğma ocağımıza dönəcəyik.

Tədbirdə çıxış edən Qarabağ müharibəsi veteranı və Xocalı hadisələrinin şahidi olan keçmiş döyüşçü Nazim Hüseynov 1992-ci ilin fevralın 25-də və 26-da baş verən hadisələri bir daha həyecanla yada saldı. O qeyd etdi ki, hələ ermənilər Xocalının işğalına



yanvar ayından böyük hazırlıqlar görürdülər. Sadəcə olaraq bu faciənin qarşısı könüllü batalyonlar tərəfindən hər dəfə alınırdı. Əgər 366-cı alayın qəfil hücumu olmasaydı, yenə öz könüllülərimiz erməni hücumunun qarşısını ala bilərdi.

Nazim Hüseynov danışdıqca həyəcanlanırdı. Çünki o, Xocalı faciəsinin ağır anlarını öz gözü ilə görmüşdü. Onu da qeyd edək ki, həmin dövrlərdə Nazim Hüseynov Xocalı hava limanında polis əməkdaşı kimi çalışıb. Daha doğrusu, Milli Qəhrəman Əlif Hacıyevlə yaxın silahdaş olub. Dəfələrlə ermənilərin Xocalı hava limanına hücumlarının qarşısını almaq üçün döyüşə atılıb. Və təsadüfi deyil ki, həmin dövrdə ermənilər Əlif Hacıyevin və eləcə də hava limanını mühafizə edən polis əməkdaşlarının başına milyonlarla rubl pul qoymuşdular. Amma Əlif Hacıyev və eləcə də onun silahdaşları son nəfəsinə qədər döyüşmüşdülər və qəhrəmancasına şəhid olmuşdlar. Nazim Hüseynov dedi ki, Xocalıda çox meytlərin çıxarılmasında yaxından iştirak etdim və hətta rəhmətlik Əlif Hacıyevin meytini də mən ordan çıxardım. Əgər ermənilər bilsəydi ki, o Əlif Hacıyevdi, heç vaxt onu bizə verməzdilər. Çıxışında Nazim Hüseynov onu da qeyd etdi ki, hava limanında Zori Balayanı dəfələrlə saxlamışdıq və onu yenidən Yerevana qaytarmışdıq. Ancaq ermənilərin havadarları həmişə onlara arxa dururdular. Deyirdilər ki, biz sizi müdafiə edə bilmərik. Çünki siz müsəlmansınız, onlar xristian. Ona görə də rus əsgərləri hadisələr gərginləşməmişdən öncə həmişə ermənilərin tərəfindən çıxış edirdilər.

Anım mərasimində Qubadlı rayonu Mollu kənd tam orta məktəbinin tarix müəllimi Vahid Quliyev də çıxış edərək görüş iştirakçıları qarşısında yaxın keçmişimizlə bağlı ətraflı məlumat verdi. O qeyd etdi ki, ermənilər öz məkrli siyasətlərini ötən əsrin əvvəllərində iki dəfə həyata keçirməyə çalışıblar. Onlar öz milli maraqları naminə 1918-ci il mart qırğınını törədiblər. Bakıda, Şamaxıda, Qubada yüz minlərlə insan erməni cəlladları tərəfindən qətlə yetirilib. Məhz Xocalı faciəsi həmin hadisələrin davamı idi. Bu isə onu göstərir ki, düşmənin sifəti dəyişməyib, əvvəlki kimi namərd və alçaqdır. Çıxışında Vahid müəllim onu da qeyd etdi ki, Azərbaycan artıq iqtisadi və hərbi cəhətdən güclü bir dövlətdir və o işğal olunmuş torpaqlarını heç kimin köməyi olmadan özü azad edəcək.

**Anım mərasiminin sonunda dəvət olunmuş qonaqlara öz minnətdarlığını bildirən Ürfət Şükürov bir daha qeyd etdi ki, Xocalı faciəsi hər bir azərbaycanlının qan yaddaşında əbədi iz qoymuşdur. Və bu cür tədbirlərin, anım mərasimlərinin keçirilməsi onu yada salır ki, xocalılar heç vaxt unudulmurlar. Bir də biz ona çalışmalıyıq ki, tək anım mərasimlərində deyil, hər gün, hər saat Xocalı faciəsini xatırlamalıyıq, onu gənc nəslə ötürməliyik. Onlar bilməlidirlər ki, bu faciə millətin qan yaddaşında əbədi qalacaqdır və heç bir yadelli Xocalıda duruş tapa bilməyəcək. Ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə biz hamımız hər an, hər dəqiqə böyük döyüşə hazırıq. Təki Ali Baş Komandan əmr versin!**

**Faiq QİSMƏTOĞLU**

Ədalət.-2017.-28 fevral.-S.3.